Çaharşənbə 22 rəbiülaxər 1337 sənə ◄ Üçüncü sənə dəvamiyyəsi ► 14 qanuni-sani 1920 sənə

# Müstəqil Azərbaycan

Tək nüsxəsi 4 manat

## Yaşasın istiqlal! Yaşasın Azərbaycan!

### Elan

Azərbaycan Cümhuriyyəti istiqlalının ehtilaf dövlətləri tərəfindən müttəhidülrəy qəbul edilməsi münasibətilə 14 yanvar 1920 çaharşənbə günü gündüz saət 12-də Azərbaycan Məclisi-Məbusanının təntənəli iclası olacağı elan olunur.

### Məsai nəzarətindən

*13 qanuni-sani*

Məsai nəzarəti bütün fabrika və zavod sahiblərinə Vükəla Şurasının qərarına binaən Avropa tərəfindən Azərbaycan Cümhuriyyəti istiqlaliyyətinin təsdiq edilməsi münasibətilə əmələ və xidmətkarları xəlq bayramında iştirak üçün maaşlarının saxlanılması şərtilə azad edilmələrini təklif ediyor.

***Məsai naziri: Pepinov***

### Azərbaycanın böyük günü

Bu gün Azərbaycan tarixində böyük bir gün, böyük bir bayramdır!

Bu gün Azərbaycan kəndisinin hürr və müstəqil olduğunu həqqilə dərk və təsdiq etməyə həqqi var. Bu gün hər azərbaycanlının şərəf və iftixarla mütəhəssis olmağa ləyaqət və istehqafı var. Bu gün bütün Azərbaycan türklərinin milli həyəcan və qələyanlarla bayramlar, şənliklər, şadmanlıqlar eləməgə fürsəti var...

Bu gün həqiqətən bir Azərbaycan var, bir də Azərbaycan türkünün beynəldüvəl təsdiq və qəbul edilmiş siyasi, milli bir mövcudiyyət və istiqlaliyyəti var!..

Azərbaycan elanı-istiqlaliyyəti tarixindən Azərbaycan istiqlaliyyəti təsdiqi tarixinə qədər davam edən qısa bir zaman, Azərbaycan tarixi yazacaq müvərrixlər üçün uzun və böyük bir kitabi-fəzilət və şərəfdir.

Bu müddət zərfində Azərbaycan dövlətlər və millətlər aləmində imtahan veriyor idi. Bu müddət içərisində Azərbaycan türkləri nə kibi məziyyət və qabiliyyətə malik olduğunu aləmə isbat ediyor idi. Bu müddətin ərzində Azərbaycanın ruh və məfkurəsində gizlənmiş bir həqq, bir məbud var idi ki; bütün millətə bəzən ümid, bəzən yas və bəzən də qüvvətli bir imani-istiqlal bəxş və nəsr ediyor idi. Nəhayət, iştə o dövri-imtahan və daha da doğrusu, o dövri-fitrət bu gün dövrü dilarayi-istiqlaliyyətə döndü. Həqq nahəqqə, zülmət nura qələbə etdi: Millət istədiyini buldu. İman müzəffər oldu: Azərbaycan qurtuldu!

Birəsrlik məhkumiyyətin, ikiillik mübarizənin və həpsindən ziyadə ruh və fikirlərimizdə yanıb qaynayan amali-siyasiyyə və milliyyənin mükafatı hasil oldu.

Bu günü təsid etməli, bu günü imtahan və mübarizələrimizin müvəffəqiyyətli bir günü olaraq təbcil eləməli, qəlblərimizi təhyic etməli, ruhlarımız yüksəlməli, imanımız artmalı, milli hisslərimiz coşmalıdır. Bu təhyic, bu qələyani-milli içərisində bayramlarımızı edər, şadmanlıqlarımızı izhar eylər ikən unutmamalıdır ki, qüvvətli bir arzu, hərarətli bir iman ilə yapışdığımız bir işdə müvəffəqiyyət də hər zaman bizdədir. Çünki:

"Cəhan titrər səbat pay ərbabiəzm və mətanətdən" həqiqət mübarizəsi cahanın da qəbul və təsdiq etdiyi bir Azərbaycan istiqlalını bu gün bizə bəxş və təmin etməyə ən ciddi bir amil olmuşdur.

***Ə. Həmdi***

### Gözlərimiz aydın!

Arzularını qövldən-felə gətirməyi əzm edən bir millət heç bir zaman istədigindən məhrum qalamaz.

Ən müqəddəs bir həqqin verdigi həqqaniyyətlə istiqlalını almaya əzm etmiş olan Azəri türkünün qulağına çoxdan intizar elədigi ruhnəvaz bir səda gəldi:

Azərbaycan istiqlalı təsdiq edildi!

Gözlərimiz aydın.

İngiltərə xariciyyə naziri Lord Kerzonun təklifi üzərinə Müttəfiqlər Şurayi-Alisi Azərbaycan ilə Gürcüstanın istiqlalını təsdiq eləmişdir.

Böylə bir xəbərin gələcəgindən ildən ziyadə bəkləyən Azərbaycan xəlqi məyusluq əlamətləri göstəriyor idisə də, siyasətimizi idarə edən məhfillər üçün xəbər pək də qeyri-müntəzir degildi.

Ehtimal ki, bu qədər təxirdən sonra müttəfiqlərin bu xüsusdakı təəccüblərinə Denikin qüvvətinin sürətlə inhilalı dəxi səbəb oldu.

Müttəfiqlərin böyük xətası da burada idi ki, onlar bolşeviklərə qarşı təbii hail olmaq üzrə müstəbid Denikin qüvvəsini iltizam etdilər. Halbuki təbii bir hökuməti-milliyyə şəklində təşəkkül edən yeni dövlətləri lüzumunca təqdir degil, ehmal etdilər. Bu ehmal nəticəsi olaraq bu gün məzkur dövlətlərin təşkilatı arzu olunur bir dərəcədə degildir.

Şimdi gözləməlidir ki, təsdiqi-istiqlal bir əmri-vaqe olduqdan sonra bu günə qədər görülən ehmal siyasəti dəgişərək fəal bir şəkil alacaqdır.

Hər halda məsələnin bu kibi əməli cəhətlərinin təhlilini başqa bir zamana buraxalım, bu gün arzuyi-millimizin beynəlmiləl bir təsdiqindən və bu surətlə mövcudiyyəti-siyasiyyəmizin aləmşümul bir məna və əhəmiyyət aldığından məmnun olaraq bayramlaşalım:

Gözlərimiz aydın!

Fəqət bunu da biləlim ki, bu hal bizi daha ziyadə çalışmaya, daha böyük əzmlərlə irəliləməyə vadar etməlidir.

Yaşasın istiqlal!

***M.Ə.***

### *Təbrik teleqrafnamələri*

#### Miralay Haskelin teleqrafı

Zaqafqaziyada bulunan Amerika fövqəladə komissarı Miralay Haskel tərəfindən Baş Vəkilimiz həzrətlərinə və qəzetimiz idarəsi vasitəsilə bütün Azərbaycan əhalisinə xitabən Tiflisdən aşağıdakı təbrik teleqrafı alınmışdır:

"Sizə bənim qəlbi təbrikatımı təqdim və bəyan edir və Azərbaycan istiqlalı üşün ən əla təmənnilərimi də izhar elərəm"

***Haskel***

#### Gürcüstan Xariciyyə nazirinin teleqrafı

Təcili. Bakı. Gürcüstan siyasi nümayəndəsi Alışbabaya:

Yanvarın 12-də İngiltərə komisssarı Uordropdan rəsmi surətdə xəbər alınmışdır ki, Uord Kerzon Ali Şuraya təklif etmişdir ki, Gürcüstan ilə Azərbaycanı təsdiq etsin. Kerzonun təklifi bütün Ali Şura əzaları tərəfindən mütəhidülrəy qəbul edilmişdir.

***Xariciyyə naziri: Qekeçqori***

#### Tiflisdən:

Azərbaycan Rəisi-Vakəlası həzrətlərinə:

Gürcüstan Müsəlman Milli Şurası qan və millət qardaşları olan Azərbaycan millətini Antant dövlətləri tərəfindən cavan Azərbaycanımız istiqlaliyyətinin təsdiqi kimi böyük tarixi gün münasibətilə qədim Gürcüstandan onun sadiq oğullarına ən qəlbi və səmimi təmənnilərilə bərabər, məmləkətin gələcək həyatının inkişaf və müvəffəqiyyətlərə məzhər olmasını arzu edir. Qafqasiya müsəlmanlarının istinadgahı olan sevimli Azərbaycanımızın istiqlalını cənabi-həqq təhkim etsin. Sitəmzədə övladını məsud etmək üçün Cümhuriyyətin varlığı əbədi və payidar olsun.

Yaşasın Azərbaycan istiqlaliyyəti! Yaşasın ittihad, üxüvvət, islamiyyət!

***Şura rəisi: Nərimanov***

#### Batumdan:

Hökumət rəisinə!

"Gürcü müsəlman və gürcü xristianlarının milli şuraları, Azərbaycan və Gürcüstanın Məclisi-Ali tərəfindən tanınması münasibətilə mütəhəssis olaraq zati-alilərinizin vasitəsilə gürcü milləti ilə daimi dostluq ilə mərbut olan Azərbaycan millətini təbrik ediyorlar. Bu gündən etibarən qardaşlıq rabitələri bizim aramızda daima sıxı bir surətdə möhkəmləşərək iki millətin sevincinə xidmət edəcəkdir.

Yaşasın müstəqil Azərbaycan və Gürcüstan

***Şura sədrləri: Məhəmməd bəy Abaşidze, Qriqori Beliyava***

#### Zaqafqaziyadakı Rus Milli Şurası tərəfindən

Bakı. Azərbaycan. Azərbaycan Cümhuriyyəti Rəisi-Vükəlasına:

"Zaqafqaziya Rus Milli Şurası Azərbaycan istiqlaliyyətinin İngiltərə tərəfindən qəbul və təsdiq edilməsi münasibətilə sizi təbrik və təhniyyətlə türk demokratiyasının yeni həyat üzrə möhkəmləşəcəyinə inanıyor"

***Rus Milli Şurası sədri: Kalyujni***

#### Polyak cəmiyyəti "Oqnisko" tərəfindən Rəisi Vükəlayə

Dövlətli, fəxamətli əfəndim!

Azərbaycan istiqlaliyyətinin qəbul və təsdiq edilməsi münasibətilə Azərbaycan üçün bugünki şadlıq günündə gərək dövləti və gərəksə xüsusi müəssisələrdən çalışmaqda olub da "Oqnisko" cəmiyyəti ətrafında toplanmış olan polyak zəhmətkeşləri adından sizi ürəkdən təbrik etməyə müsaidə veriniz. Həmişə millətlərin istiqlalı uğrunda mübarizə edənlərin oğlu və nəvələri olmaq həsbilə və bu fərəhnak tarixi gündə ürəklərimiz böyük şadlıq hissilə doludur.

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın müstəqil Azərbaycan vətəndaşları!

Yaşasın Azərbaycan hökuməti!

***"Oqnisko" polyak cəmiyyəti naminə mühəndis: Lyudvik Pikarski***



## Yaşasın istiqlal bayramı! Yaşasın hökumətimiz!

### Şura Rusiyasının təklifi

Məlum olduğu üzrə Azərbaycan və Gürcüstan hökumətləri Şura Rusiyası xariciyyə işləri komissarı tərəfindən bir təklif almışlar idi. Haman təklifin mətnini tamamilə və Azərbaycan xariciyyə naziri həzrətlərinin cavabını aşağıda dərc ediyoruz:

#### *Radio teleqram*

Bakı, Azərbaycan xariciyyə nazirinə və Azərbaycan millətinə

Moskvadan, 1920-ci sənə 6 qanuni-sanidə əxz edilmişdir:

"2 qanuni-sani 1920-ci sənə Rusiya əmələ və köylülərinin qəhrəmananə ehtimamlari ilə hüsulə gəlmiş qırmızı ordu Yudeniç və Kolçakı münhəzim edib çar generalı Denikinin intizamsızlıq ilə Rostova ricət edən beloqvardiya əşqiyasına müxərrib zərbələr endiriyor. Monarxizm əksinqilabına axırıncı zərbələrini vurmada olan Şura Rusiyası Qoşma Cümhuriyyəti hökuməti Azərbaycana müraciət edərək Cənubi Rusiya beloqvardiya ordusunu səriyən itlaf və imha etmək üçün hər iki hərbi komandanlıq arasında bir hərbi etilaf əqd edilməsi həqqində Şura hökumətilə bilatəxir müzakirəyə başlamasını təklif ediyor. Şura hökuməti onu dəxi göstərməgi vəcibədən əǆd ediyor ki, Cənubi əksinqilab yalnız Rusiya Şura Cümhuriyyətinin sövtavər düşməni olmayıb sabiq Rusiya ərazisinə daxil olan bütün kiçik millətlərin də düşmənidir. Denikin yalnız rus əmələ və köylüsünün düşməni olmayıb, Gürcüstan və Azərbaycan əmələ və köylülərinin də düşmənidir. Biz etiqad ediyoruz ki, Gürcüstan və Azərbaycan əmələ və köylüləri də Denikini kəndilərinə düşmən əǆd ediyorlar. Biz etiqad ediyoruz ki, həmçinin onlar da iztirab ilə o günü bəkliyorlar ki, Şura Rusiyası ilə Qafqasiya arasında hail təşkil edən beloqvardiyayı ortadan qaldırıb əvvəlcə bir dövlət hüdudunda yaşayan millətlər arasındakı münasibət iadə və ehya edilsin. Şu dəqiqəyi təsriə çalışmalıdır. Şimaldan Rusiya əmələ və köylüləri tərəfindən Denikin üzərinə endirilən zərbələrə Gürcüstan və Azərbaycan əmələ və köylülərinin də zərbələrini əlavə və inzimam etməlidir.

Biz vəqti keçirtmədən Azərbaycana və Azərbaycan millətinə müraciət edərək Denikinə qarşı mübarizəyə başlamaya dəvət ediyoruz. Azərbaycan dövlətinin həqiqi və onun zəhmətkeş siniflərinin ictimai-siyasi mənafei bizim təklifimizə razılıq ilə cavab verməyə Azərbaycanı məcbur etməlidir.

***Xariciyyə işləri komissarı: Qeorgi Çiçerin***

#### Azərbaycan Cümhuriyyətinin cavabı

Moskva. Xariciyyə işləri komissarına

Yanvarın 2-də çəkilib də ayın 6-da almış olduğum radio teleqrafınıza cavabən bildiriyoram ki, Azərbaycan xəlqi böyük tarixi hadisat cərəyanında böyük fədakarlıqlar və məşəqqətlər bahasına hürriyyət və istiqlal qazanaraq üsuli-idarəsi əsasilə Xəlq Cümhuriyyəti binası qoymuşdur. Millətlərin təyini-müqəddərat hüququ əsasilə təvəllüd etmiş Azərbaycan Cümhuriyyəti bilatərəddüd bu nöqteyi-nəzərdə duruyor ki, bütün millətlər kəndi müqəddərat və həyatını kəndi arzusu ilə təyin etmək həqqinə malikdirlər. Binaənileyh Azərbaycan hökuməti öz millətinin daxili işlərinə özgələrin müdaxiləsini qeyri-mümkün tələqqi və eyni zamanda kəndisi daima başqa millətlərin həyatına müdaxilə etməmək əsasını təqib etmişdir. İştə bu həqq nöqteyi-nəzərindən Azərbaycan hökuməti rus xəlqinin kəndi daxili həyatını qurmaq işlərinə qarışmayı kəndisi üçün qeyri-mümkün əǆd ediyor.

Bitərəf bir dövlət olmaqla bərabər Azərbaycan Cümhuriyyəti kəndi hürriyyət və həqqi-hakimiyyətini hər növ təcavüz və təərrüzdən müdafiə etməyi mütəhidülrəy qərarlaşdırmışdır. Buna görədir ki, Azərbaycan hökuməti çar generalı Denikin həmişə Azərbaycan xəlqinin istiqlalına təcavüz etdigindən onun müqabilinə inadla mübarizə etmiş və müvəffəq ola bilmək qəsdilə qonşu Gürcüstan ilə hərbi tədafüi-ittifaq bağlamışdır.

Azərbaycan hökumətinin yuxarıda göstərdigi kibi ittixaz etmiş olduğu xətti-hərəkət onunla sair millətlər arasında dostanə münasibat hüsulunu təlqin ediyor.

Binaənileyh Azərbaycan Cümhuriyyəti hökuməti müzakirat təriqilə Azərbaycan və rus millətləri miyanında hər iki dövlətin həqqi-hakimiyyətini müdafiə əsasilə mehriban qonşuluq münasibatı peyda etməyə hazırdır.

***Azərbaycan Cümhuriyyəti Xariciyyə naziri: Xan Xoyski***

### İstiqlal bayramı

Səşənbə günü yanvarın 13-ü Bakıda ən adi və təbii, həm də təbii olduğu qədər saf və səmimi bir bayram kibi keçdi.

Hələ gecə yarısı "Azərbaycan" qəzetələri mətbəədən çıxar-çıxmaz Antanta tərəfindən Azərbaycan istiqlaliyyətinin təsdiq edilməsi xəbəri ildırım sürətilə bütün şəhərə yayılmışdı. Gecə küçələr, ........... teatro, sinemalarda cəmaət yekdigərini böyük bəşaşət ilə təbrik ediyordu.

Sabah tezdən bazar, dükan bağlanıb evlər, bazarlar milli bayraq və xalılar ilə təzələnmiş, bütün şəhər əhalisi küçələrə çıxmış, pasaj, bulvar, skiverlər və qeyrə kibi təzgahlar dolmuş idi.

Bütün vətəndaşlar yekdigərini böyük milli bayram münasibətilə təbrik ediyorlardı.

Paytaxtımızda bulunan əskəri qitəmat dəstə-dəstə musiqi ilə şəhəri gəziyorlardı.

Bundan əlavə könüllülər, məktəblilər və qeyriləri də musiqi və milli bayraqlar ilə bərabər şəhəri gəzib şadmanlıqlar eliyorlar idi.

Bugünki nümayişlər tərtib və intizamca nöqsan olmaqla bərabər millətin öz təşəbbüsü ilə olduğu üçün pək səmimi idi.

### Rəsmi bayram

Azərbaycan istiqlaliyyətinin Antanta tərəfindən qəbul və təsdiqi münasibətilə bu gün çaharşənbə yanvarın 14-i rəsmi bayram elan edilmişdir.

Teleqraf və telefon ilə bütün Azərbaycana bu günün rəsmi bayram elan edildigi xəbər verilmişdir.

### *Hökumət işləri idarəsindən*

Hökumət işləri ümüma bildiriyor ki, Azərbaycan Cümhuriyyəti istiqlaliyyətinin Ali Şura tərəfindən təsdiq edilməsi münasibətilə hökumət tərəfindən qanuni-saninin 14-cü gününün zeyldəki qərar üzrə bayram edilməsinə qərar verilmişdir.

1 - Səhər saat 11-də Təzə Pir məscidində dua olunacaqdır.

2 - Saat 12-də Azərbaycan Məclisi-Məbusanının təntənəli iclası vaqe olacaqdır.

3 - Gündüz saat 1-də Hürriyyət meydançasında qoşunların rəsmi-keçidi vaqe olacaqdır.

4 - Gündüz 2-də xariciyyə nəzarəti binasında hökumət tərəfindən təbrikat qəbul ediləcəkdir.

5 - Hökumət, ümumi və xüsusi idarələr tətil günü kibi ayın 14-cü gününü bayram edəcəklərdir.

6 - Gecə şəhər çırağban və tənvir ediləcəkdir.

7 - Şəhər ətrafındakı dəmiryol xəttilə müsafirləri səhər saat 7-dən 11-ə qədər və gündüz saat 2-dən 9-a kibi pulsuz aparacaqlardır.

### Teleqraf xəbərləri

*(Azərbaycan simsiz teleqraf mövqifi tərəfindən alınmışdır)*

#### Bolşevizmə qarşı ittifaq

13 qanuni-sanidə vürud edən radiolardan:

Paris 11 qanuni-sani. Bolşevizmə qarşı birlikdə mübarizə və müdafiədə bulunmaq üçün bir ittifaq əqd edilməsi həqqində Latviya, Litva, İslandiya, Finlandiya, Ukrayna, Qafqasiya cümhuriyyətləri nümayəndələrindən ibarət bir konfrans dəvət edilməsi təşəbbüsünü Lehistan hökuməti kəndi üzərinə almışdır. Mürəxxəslərin vurudi qanuni-saninin 15-dən sonra intizar olunuyor. Ümid ediyorlar ki, bu konfransda Rumuniya da iştirak edəcəkdir. Zira Denikin ordusunun hücumu davam etdiginə görə onun bolşeviklər ilə bilavasitə təmas etməsi məlhuzdur.

### "Müsavat"ın bəyannaməsi

*Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən bu gecə aşağıdakı bəyannamə buraxılmışdır.*

Azad Azərbaycan vətəndaşlarına

Vətəndaşlar!

Gözləriniz aydın!

Sizin təsdiq elədiginiz, təsdiqini tələb etdiginiz Azərbaycan istiqlalını böyük Avropa dövlətlərindən təşəkkül edən müttəfiqlər Şurayi-Alisi dəxi təsdiq eləmişdir.

Azərbaycan istiqlal fikrinin bayraqdarı olmaq həsbilə bu gün bu böyük bayram ilə bütün millətdaşlarını və vətəndaşlarını təbrik edərkən firqəmizin nə kibi mənəvi bir zövq duyduğunu ölçmək qabil degildir.

Bu gündən etibarən vətəndaşlar, Azərbaycan şüarı yalnız Azəri türklərinin yolunda ölməgə and içdikləri bir şüar degil, beynəlmiləl bir həqiqət, bir vəqədir.

Bir tərəfdən Rusiya müqəddəratına hakim olan Sovet hökuməti Azərbaycanı tanımaya mütəmail, digər tərəfdən böyük Avropa dövlətləri kəndi qərarları ilə istiqlalımızı təsdiq eləmişlərdir.

Deməк ki, Azərbaycan xəlqinin əzmi, istedadı və kəndi həyati-siyasiyyə və milliyyəsi ilə yaşamaq xüsusindəki qərarı bu gün dünyanın hakimlərini kəndi həqqaniyyətini təslimə məcbur ediyor.

Ey vətəndaş! Sən bu gün kəndi qüdrətini, bəslədigin fikrin əzəmətini dərk ilə küçəyə çıx, istiqlal bayramının böyüklügü ilə mütənasib olaraq şad ol!

Şad ol ki, birinci islam və türk cümhuriyyəti beynəlmiləl bir təsdiq almış, bu gündən etibarən millətlər və dövlətlər arasında rəsmi bir mövqe tutmuşdur!

Qoy bu mənəviyyat səni əzmində cəsur etsin, qoy quruluş və istihalə zamanının keçici ağırlıqları sənin qüvvətli ruhunu, hürriyyət və istiqlal yolundakı fədakarlığını azaltmasın.

Millətləri əsir bir halda bulunduran müstəbid dövlətlərin bu böyük dünya müharibəsindəki pozğunluqları nəticəsində doğan növzad hökumətlər arasında bir türk və müsəlman cümhuriyyəti olmaq etibarilə Azərbaycan istiqlalının beynəlmiləl təsdiqinin aləmi-islam və türk tarixində mühüm bir səhifə açacağına heç şübhə edilməsin.

İstiqlalımızın bu gün dünyanın qismi-əzəminə hakim olan böyük dövlətlər tərəfindən felən təsdiqi heç şübhəsiz ki, yarın hüququn dəxi bütün dövlətlər tərəfindən təsdiq olunacağını təyid elər.

Vətəndaşlar, bu gün də Azərbaycan istiqlalına və bu istiqlala xadim olan amillərə vaqe hücumlar qarşısında Türk Ədəmi Mərkəziyyət "Müsavat" firqəsi naminə siz əziz vətəndaşlarını təbrik edən Mərkəzi Komitə istiqlalımızın təsdiqini təbrik edərkən müsavat fikir və ruhunun müzəffəriyyəti ilə dəxi bütün məslək arkadaşlarını alqışlar!

Yaşasın Azərbaycan Cümhuriyyəti!

Yaşasın millətlərin azadlığı!

Yaşasın türklük!

***Türk Ədəmi Mərkəziyyət "Müsavat" firqəsi***

**Müdir: Hacıbəyli Üzeyir**

*İdeya müəllifi, ərəb əlifbasından latın qrafikasına çevirən:* **Şirməmməd Hüseynov**

*Nəşrə hazırlayanlar:* **Aygün Əzimova, Samir Xalidoğlu (Mirzəyev)**